DOI: https://doi.org/10.36719/2706-6185/33/219-223

**Yusif Həsənli**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
magistrant
svinksyusif@gmail.com

# "YAŞIL İQTİSADİYYAT": XÜSUSİYYƏTLƏRİ, NÜMUNƏLƏR VƏ MÜASİR DÖVRDƏ İNKİŞAF MƏQSƏDLƏRİ

**Xülasə**

"Yaşıl" iqtisadiyyat termini insan rifahını və sosial ədalətli təmin edən və eyni zamanda, ətraf mühit risklərini kəskin azaldan iqtisadiyyat kimi müəyyən edilir. Onun əsas komponentlərindən olan "Yaşıl biznes müəssisələri" qlobal və yerli səviyyədə ətraf mühitə, cəmiyyətə, icmalara və iqtisadiyyata zərərli təsir etməyən iqtisadi inkişafı, sosial tərəqqini və ətaraf mühitin mühafizəsini təmin edən müəssisələrdir.

İqtisadiyyatın "yaşıl" olması üçün onun dörd amilə cavab verməsi zəruridir: dayanıqlı inkişaf prinsipləri iqtisadi qərarlara daxil edilir; ekiloji təmiz məhsul istehsal istehsal edilir, xidmətlər göstərilir və bunlar "yaşıl" olmayan xidmət və məhsulları əvəzləyir: ənənəvi rəqabətə nisbətdə "yaşıl"dır; kommersiya fəaliyyətində ekoloji prinsiplərə sadiqliyini bəyan edir.

"Yaşıl" biznesin əsas təşəbbüsü xidmət və istehsal prosesi zamanı meydana gələn zərərli kimyəvi maddələrin, material və tullantıların təsirini azaltmaq, yaxud aradan qaldırmaqdır.

***Açar sözlər:*** *yaşıl iqtisadiyyat, yaşıl texnologiyalar, yaşıl inkişaf, yaşıl hidrogen*

**Yusif Hasanli**
Azerbaijan State Oil and Industry University
master student
svinksyusif@gmail.com

## "Green economy" characteristics, examples and development goals in the modem era

**Abstract**

The term "Green economy" is defined as an economical development, that promotes human well-being and social justice whille drastically reducing environmental risks. "Green busines enterprises", which are its main components, are enterprises that do not have a harmful effect on the environment, society, communities and economy at the global and local level, and ensure economic development, social progres and environmental protection.

In order for the economy to be "green", it must meet four factors: the principles of sustainable development are included in economic decisions; environmentally friendly products are produced, services are provided, and these replace services and products that are not "green": they are "green" competition; declares its commitment to ecological principles in its commercial actives.

The main initiaive of "Green Business" is to reduce or eliminate the impact of harmful chemicals, materials and waste generated during the service and production process.

***Keywords:*** *green economy, green technologies, green development, green hydrogen*

## Giriş

İqtisadi inkişaf nəticəsində bir tərəfdən texnoloji yeniliklərin enerjiyə tələbatı, digər tərəfdən isə məişət və sənaye tullantılarının, çirkab suların həcminin artması da müşahidə edilir. Hazırda bu sahələrin idarə olunması, ətraf mühitin mühafizəsi, insanların sağlam təbii şəraitdə yaşaması, təbii sərvətlərdən dünya əhalisinin rifahı naminə daha dolğun istifadəsi kimi məsələlər əsas prioritetlərdir. Bu prioritetlər daxilində son zamanlar enerjidən səmərəli istifadə edən və ekoloji cəhətdən əlverişli texnologiyaların- "yaşıl texnologiya"ların tətbiqi geniş vüsət almışdır. "Yaşıl

texnologiya"lar təbiətdən yararlanan qurğuların hazırlanması, işə salınması və bu zaman ətraf mühit üçün tam zərərsiz və ya minimal zərərlə işləyən texnologiyalardır.

"Təmiz texnologiyaları, innovasiyaları tətbiq etməklə bazarı yenidən formalaşdırmaq mümkündür. Siyasət qurucuları ənənəvi yanacaq subsidiyalarını ləğv etməklə, enerji yoxsulluğu ilə mübarizəni gücləndirməklə, karbon emissiyası üzrə qiymətqoyma sxemlərini yaratmaqla və mövcud texnologiyalardan istifadə yolu ilə düzgün mesajlar formalaşdıra bilərlər. Günəş və külək enerjisi texnologiyalarının maya dəyəri düşür, litium-ion batareya texnologiyası üçün də oxşar inkişaf trayektoriyası gözlənilir. Bununla yanaşı, əldə olunan enerjinin ötürülməsi, paylanması və istehlakı sahəsində də təmiz texnologiyalar inkişaf etdirilməlidir. Hidrogenəsaslı texniki həllər, təmiz hidrogen hasilatı və istehsal infrastrukturu genişləndirilməlidir. İqlim probleminin həllində daha bir texnologiya karbonun tutulması və saxlanmasıdır" (1).

"Yaşıl İqtisadiyyat" iqtisad elmində son onilliklərdə meydana gəlmiş yeni istiqamətdir. "Yaşıl iqtisadiyyat" təbii mühitin bir hissəsi olan, həmçinin ondan asılı olan bir iqtisadiyyatdır.

"Yaşıl iqtisadiyyat"ın konsepsiyası iatisad elmində və fəlsəfədə mövcud olan postmodernizm, resursyönümlü iqtisadiyyat, ekoloji oiqtisadiyyat, ətraf mühitin iqtisadiyyatı, yaşıl siyasət və s. kimi bir şox istiqamətlərin ideyalarını özündə birləşdirir.

"OECD, UNEP kimi beynəlxalq təşkilatlar "yaşıl inkişaf" və ya "yaşıl iqtisadiyyat" ekoloji təhlükəsizliyi təmin edən mal və xidmətlərin istehsal və istehlakını, həmçinin "yaşıl inkişaf"a yatırılan investisiyaları nəzərdə tutan bir anlayış kimi qəbul edirlər. Bu baxışda ekoloji davamlılıq təmin edilərkən iqtisadi inkişaf, gəlir artımı, məşğulluq və yoxsulluğun azaldılması amilləri ətraflı şəkildə düşünülür" (2).

Dünyada ətraf mühitin çirklənməsi, azalan təbii ehtiyatlar və artan tələbat fonunda dayanıqlı inkişafa nail olmaq üçün "yaşıl iqtisadiyyat"ın genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5-ci prioritet "Təmiz ətraf mühit və yaşıl artım" ölkəsi adlanır. Sənəddə ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqi, ekoloji baxımdan əlverişli olan "yaşıl texnologiyalar"ın tətbiqinin genişləndirilməsi ilə bağlı qarşıya konkret tapşırıqlar qoyulub.

"Qeyd edək ki, Azərbaycanda qurulmuş təkrar emal prosesi "yaşıl iqtisadiyyat"ın inkişafına, rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsinə, ekoloji vəziyyətin yaxşılaşdırılmasına xidmət edir. Müasir iqtisadiyyatda "təkrar emal" anlayışı mühüm yer tutur. İstehlak prosesindən sonra tullantıların bir qismini yenidən istifadəyə yararlı hala gətirmək mümkündür. Təkrar emal yenidən istifadəsi mümkün olan materialların dövri olaraq istehlak prosesinə daxil edilməsidir. Əsas məqsəd təbii sərvətlərin israfını və ekoloji çirklənmənin qarşısını almaq, eləcə də əlavə xammal bazası yaratmaqdır. Təkrar emal ilkin istehsaldan fərqli olaraq, asan və tez başa gəlir ki, bu da enerji qənaətinə imkan verir" (3).

İnkişaf etməkdə olan ölkələrin, məsələn, balıqçılıq, meşə təsərrüfatı və ya kənd təsərrüfatı sektorlarında sertifikatlaşdırılmış xammal ixracı, davamlı istehsal və təchizat zəngirlərinə investisiyaların artırılması da daxil olmaqla yeni ticarət imkanlarından istifadə edərək davamlı ticarətin genişləndirilməsindən faydalanma ehtimalı böyükdür.

Davamlı inkişaf, Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit və İnkişaf Konfransından (UNCED)- 1992-ci ildən bəri beynəlxalq birliyin əsas məqsədi olmuşdur.

Birləşmiş Millətlər Təşkilatının Ətraf Proqramı (UNEP), BMT-nin İqtisadi və Sosial Məsələlər Departamenti (DESA), Birləşmiş Millətlər Ticarət və İnkişaf Konfransı (UNCTAD), Beynəlxalq Təşkilat (ILO) tərəfindən yaşıl iqtisadiyyat və ya yaşıl böyümə ilə bağlı son nəşrlər, Dünya Bankı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Qlobal Yaşıl Böyümə İnstitutu (GGG), Yaşıl İqtisadiyyat Koalisiyası, Paydaşlar Forumu, yaşıl böyümə liderləri və digərləri bu məlumat boşluqlarına cavab verməyə və bu anlayışları pozmağa başladılar.

"Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) tərəfindən 2011-ci ilin fevralında yayımlanan "Yaşıl İqtisadiyyata Doğru" adlı hesabatda, yaşıl iqtisadiyyat "həyat

şəraitinin yaxşılaşdırılması və daha çox sosial bərabərliklə nəticələnərək ətraf mühit risklərini və ekoloji çatışmazlığı azaltmaqla" nəticələnir. Başqa sözlə, yaşıl iqtisadiyyatda karbon azdır, mənbələrdən səmərəli istifadə edir və sosial cəhətdən əhatə olunur.

Həqiqətən- yaşıl iqtisadiyyat cəmiyyətlə təbiət arasındakı əlaqə haqqında mövcud konsepsiyanın yaxşılaşdırılması ilə qurulur. Hakim məntiq ondan ibarətdir ki, təbii mühit iqtisadi bir alt sistemdir və əmələ gələn tullantıların istehsal və udulması üçün zəruri olan maddi, enerji və biotik mənbələri təmin etmə funksiyasını yerinə yetirir" (4).

Azərbaycanda iqtisadiyyatın modernləşdirilməsi, innovativ inkişafı, rəqabət qabiliyyətinin artırılması, enerji səmərəliliyinin təmini ilk növbədə iqtisadi artıma istiqamətləndirilsə də, əslində əsas məqsəd hər bir insanın həyat çəraitinin yaxşılaşdırılması və gələcək nəsillərin normal rifah şəraitinin təmin edilməsidir.

Bu məsələ hazırda formalaşdırılmaqda olan informasiya cəmiyyəti iqtisadiyyatının prinsipləri əsasında davamlı inkişafın təmini kimi müəyyənləşdirilmişdir. Bu isə dünya və ölkə miqyasında istehsalın və istehlakın ekolojiləşdirilməsini zəruri edir.

"Avropa Birliyi yaşıl iqtisadiyyatı davamlı istehsal-istehlak enerji səmərəliliyi və bərpa olunan enerji istifadəsi ilə iş imkanlarının yaradılması və insan rifahının artırılması ilə yaxından əlaqəli şəkildə olan iqtisadiyyat kimi müəyyən edir.

"Yaşıl iqtisadiyyat", əslində yeni iqtisadiyyat anlayışı olaraq da ifadə edilə bilər və ya klassik iqtisadiyyatın təməllərinə insan və təbiət faktorlarının əsaslı şəkildə əlavə olunması kimi də təyin oluna bilər. İnsanın və təbiətin dəyərinin bilinməsi, insanların rifahının yüksəldilərək yoxsulluğun azaldılması, məhdud təbii ehtiyatların effektiv və optimal şəkildə istifadə edilməsi "yaşıl iqtisadiyyat"ın təməl prinsiplərini meydana gətirir" (5).

2050-ci ilədək karbon emissiyalarını sıfıra endirməyi hədəfləyən Avropa ölkələri "yaşıl keçid" platformasının əsas istiqamətlərindən sayılan hidrogenin istehsalı, onun saxlanması və ixracına nail olunması sahəsində intensiv iş aparırlar. Hidrogen isə planetimizdə ən bol elementlərdən biri olmaqla yanaşı, təmiz yanacaq növü kimi getdikcə daha çox maraq kəsb edir.

"Yaşıl hidrogen" bərpaolunan enerjidən istifadə edilərək elektroliz nəticəsində əldə olunan enerji növüdür. Belə ki, hidrogen istehsalında külək və günəş enerjisi kimi bərpaolunan enerjidən istifadə olunduğundan onun tərkibində heç bir istixana qazı emissiyası yoxdur.

Hidrogen yüngül qaz olduğu üçün yanma zamanı ondan üç dəfə çox istilik almaq mümkündür. Təsadüfi deyil ki, bu sahədə potensialın yüksək olmasına və ekoloji təmizliyinə görə hidrogeni "gələcəyin yanacağı" adlandırırlar. Məlum olduğu kimi, hazırda istehsal olunan hidrogenin çox cüzi hissəsi, təqribən 1 faizi "yaşıl hidrogen"dir. Bununla belə, Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin məlumatına görə, 2050-ci ilə qədər enerji istehsalının 12 faizi hidrogenin payına düşəcək.

"Məlum olduğu kimi, 2016-cı il aprelin 22-də Birləşmiş Millətlər Təşkilatının Mənzil qərargahında BMT-nin İqlimDəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Razılaşması imzalanıb. Sazişə imza atan 171 ölkədən biri də Azərbaycan Respublikası olub. Həmin ilin oktyabr ayının 28-də isə Prezident İlham Əliyev "Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası ilə bağlı Tərəflərin 21-ci konfransında qəbul olunmuş Paris Sazişinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununu təsdiqləyib. Dövlət başçısının "Bərpa olunan enerji mənbələrindən istifadə sahəsində layihələrin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2019-cu il 5 dekabr tarixli sərəncamına əsasən isə Azərbaycanda Bərpa olunan enerji mənbələri üzrə komissiya yaradılıb" (6).

Hazırda dünya İnformasiya Kommunikasiya Texnologiyası (İKT) sənayesinin özünün yaşıl texnologiyalar əsasında yenilənməsinə və istehsalına ciddi önəm verir. Bu sahədə müvafiq elmi tədqiqatlar aparılır, layihələr icra olunur, yaşıl texnologiyalar işlənilir. Yaşıl İKT, Yaşıl kompüter mausu, İKT sahəsində yaşıl innovasiya, Dayanıqlı koçmpüter və kommunikasiyalar, Dayanıqlı inkişaf üçün İKT, Dayanıqlı İKT layihələndirilməsi, Yaşıl kompüter şəbəkələri, Smart Şəhərlər və yaşıl İKT sistemləri, Yaşıl Məlumat Mərkəzləri, Yaşıl İKT Konfranslar, Yaşıl e-cihazlar, Yaşıl biotibb, Yaşıl Media, Yaşıl İKT Media Kitabxanası, İdarəetmədə yaşıl İKT, Yaşıl metrika, Səhiyyə

və yaşıl İKT və s. kimi elmi-texniki sferalarda mütərəqqi innovativ tenologiyalar işlənilməkdə və tətbiq olunmaqdadır.

"... Hazırkı informasiya bolluğunda Big Data texnologiyalarına dair yeni tələblər irəli sürülməkdədir. Belə ki, insanların müxtəlif təyinatlı kompüter- informasiya şəbəkələrindən daha çox istifadə etməsi getdikcə artan informasiya bolluğunu yaradır. Nəticədə informasiya resurslarının həcmi hədsiz artır və lazımi informasiyadan lazımsızları ayırmaq getdikcə çətinləşir. Bu, əlavə vaxt və maliyyə resurslarının sərfinə səbəb olur. İnformasiya bolluğu müəyyən müddətdən sonra informasiya "zibilliyi" yaradır. Onların vaxtında ləğv edilməməsi ciddi problemlərə səbəb olur. Hər hansı şəxsə, təşkilata aid informasiya rəqəmsal formada olsa da onların saxlanılması, sistemləşdirilməsi, emalı, qorunması, ötürülməsi texnologiyalarına yaşıllaşdırma nöqteyi-nəzərindən yanaşılması tələb edilir. İnformasiya mədəniyyəti, informasiyadan istifadə, informasiya axtarışı üsulları da həmin tələblər əsasında yenidən işlənilməlidir. Bövə yük həcmli verilənlərin effektli və məhsuldar istifadəsi üçün uyğun texnologiyalar inkişaf etdirilməlidir. Bütün bunlara baxmayaraq, cəmiyyətdə həm də informasiya bolluğu ilə yanaşı, informasiya qıtlığı problemi də mövcuddur. Müvafiq sahələrdə- nəqliyyatda, kənd təsərrüfatında, ticarətdə, tibbdə və s. ən zəruri informasiyanın vaxtında əldə olunması sənaye iqtisadiyyatının informasiya tullantılarını yaradır və artıq vaxt və maliyyə xərcinə səbəb olur. Ona görə də informasiyalaşdırma prosesinin sürətli və güclü inkişaf etməsi arzu olunan haldır və cəmiyyətin inkişafına təkanverici qüvvədir. Eyni zamanda, informasiyalaşdırma prosesi sənaye iqtisadiyyatının müxtəlif sahələrində həyata keçirilən yaşıllaşdırma texnologiyalarından biridir" (7).

"Bəşəriyyətin tərəqqisi naminə ekoloji problemlərin həllinin zəruriliyi dünyanın bütün dövlətlərinin yekdil qəbul etdiyi "Minilliyin İnkişaf Məqsədlərində öz əksini tapmaqla yanaşı, ekoloji davamlılıq məqsədi xüsusi qeyd edilir. Son dövrlərdə dünya ümumdaxili məhsulunun 4 dəfə artması yüz milyonlarla insanın həyat səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur. Lakin bu artım, əsasən, təbii kapitalın (meşə və kənd təsərrüfatı, torpaq, su resurslarıvə biomüxtəlifliyin, meşə sahələrinin azalması, səhralaşma və s. neqativ proseslər intensivləşdi. Ekoloji məhdudiyyətlərin güclənməsi dünyada iqtisadi inkişafın tipinin formalaşması zərurəti yaratdı, yeni "yaşıl iqtisadiyyat"ın hazırlanmasına səbəb oldu. Bu sahənin konturları BMT təşəbbüslərində "yaşıl iqtisadiyyat"a (green economy) keçid təkliflə

ri, yaşıl inkişaf (green groth) proqramları ilə başladı. "Yaşıl iqtisadiyyat"a keçid məsələləri BMT-nin Rio+20 sammitinin nprioritet məsəlılıərindən oldu. Beynəlxalq sənədlərdə "yaşıl sənaye" (green industry), "yaşıl bazarlar" (green market), "yaşıl məşğulluq" (green jobs), "yaşıl" sifətli terminlər getdikcə geniş istifadə edilməyə başladı. Artıq "yaşıl" innovasiyalar terminindən də geniş istifadə edilir. Burada ətraf mühitə təsir edən (alternativ energetika, ekonəqliyyat, bioloji yanacaq və s.) yeni texnologiyalar nəzərdə tutulur" (8).

## Nəticə

Müəllif araşdırmasında ilk dəfə 1989-cu ildə Böyük Britaniyada gündəliyə gətirilən "Yaşıl iqtisadiyyat" termininin iqtisadi tərəflərinə nəzər yetirmiş və qarşısına qoyduğu məqsədə çatmışdır, demək olar.

1989-cu ildə Böyük Britaniya hökuməti üçün bir qrup aparıcı ekoloji iqtisadçı tərəfindən Yaşıl İqtisadiyyatın Planı (Pearce, Markandya və Barbier) adlı qabaqcıl hesabatda ilk dəfə olaraq "Yaşıl İqtisadiyyat" terminindən istifadə edilmişdir.

1991 və 1994-cü illərdə müəlliflər Blueprint 2: Dünya iqtisadiyyatının yaşıllaşdırılması və Blueprint 3: Dayanıqlı inkişafın ölçülməsi adlı ilk hesabatın davamını buraxdılar. İlk Blueprint hesabatının mövzusu iqtisadiyyatın ətraf mühit siyasətinin köməyinə gələ biləcəyi və gəlməli olduğu olsa da, davamçılar bu mesajı qlobal iqtisadiyyatın problemlərinə- iqlim dəyişikliyi, ozon təbəqəsinin tükənməsi, tropik meşələrin qırılması və inkişaf etməkdə olan ölkələrdə resurs itkisini dünyanın diqqətinə çatdırdı.

Yaşıl iqtisadiyyat resursdan səmərəli istifadə edən və sosial cəhətdən inklüziv olan bir iqtisadi sistemdir. Yaşıl iqtisadiyyatda məşğulluq və gəlir artımı, karbon emissiyalarının və çirklənmənin

azaldılmasına, enerji və resurs səmərəliliyinin artırılmasına, biomüxtəlifliliyin və ekosistem xidmətlərinin itirilməsinin qarşısının alınmasına imkan verən iqtisadi fəaliyyətlərə, infrastruktura və aktivlərə dövlət və özəl sərmayələr vasitəsilə nəzarət olunur.

## Ədəbiyyat


1. vergiler.az/news/economy/19960.html
2. Palitra qəzeti, N99 (2914), 6 iyun 2017. 13 s.
3. economy.gov.az>az/page/yaşil-iqtisadiyyat
4. az.svayambhava.org>economia-verde-8689
5. ict.az>az/iqtisadiyyat/127971-yaşil-...
6. xalqqazeti.az>az/iqtisadiyyat/127971-yaşil-...
7. jpis.az>uploads/article/az/THE_ROLE,PROB-LEMS-AND...
8. muhaz.org>mesimova-arzu


Göndərilib: 14.01.2024 Qəbul edilib: 17.03.2024